# “Gənc fiziklərin yaradıcılıq müsabiqəsi”nin keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin əmri

Bakı şəhər məktəblilərinin fizika elminə olan marağının daha da artırılması, bu sahədə nəzəri və təcrübi biliklərinin təkmilləşdirilməsi, istedadlı şagirdlərin aşkara çıxarılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. Bakı şəhəri ümumtəhsil məktəbləri və uşaq-gənclər inkişaf mərkəzlərinin IX-XI sinif şagirdləri arasında “Gənc fiziklərin yaradıcılıq müsabiqəsi” 2017-ci ilin noyabr-dekabr aylarında keçirilsin.

2. Müsabiqənin əsasnaməsi, təşkilat komitəsinin tərkibi təsdiq edilsin (əlavə olunur).

3. Müsabiqənin rayonlar üzrə keçirilməsinə cavabdehlik aşağıdakı müəssisə rəhbərlərinə tapşırılsın.

Yasamal, Sabunçu və Pirallahı rayonları –Gülarə Quluzadə (4 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin direktoru)

Nərimanov, Xətai və Suraxanı rayonları – Könül Mustafayeva (5 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin direktoru)

Binəqədi və Nəsimi rayonları- Ziyat Nəbiyev (6 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin direktoru)

Qaradağ və Səbail rayonları - Elvira Mirzəyeva (7 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin direktoru)

Nizami və Xəzər rayonları - Təranə Aslanova (8 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin direktoru)

4.Təhsil müəssisələrinin rəhbərləri təqdim olunan Əsasnaməyə uyğun olaraq müsabiqənin yerlərdə təşkili ilə əlaqədar lazımi işlər görsünlər.

5. Məktəbdənkənar fəaliyyətin təşkili sektoru (A.Əzizov) müsabiqənin yüksək səviyyədə keçirilməsini təmin etsin.

6. Təlimə Dəstək Mərkəzi (S.Bektaşi) müsabiqə ilə bağlı təşkilati-metodiki işləri həyata keçirsin.

7. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

8. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) əmrin icrası ilə əlaqədar keçirilən tədbirlərin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını və İdarənin internet saytında yerləşdirilməsini təmin etsin.

9. Əmrin icrasına nəzarət müdir müavini N.Səfərovaya həvalə edilsin.

**Əsas:** Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Fəaliyyət planı.

***Məhəbbət Vəliyeva***

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

*15 noyabr 2017-ci il*

*№228*

**“Gənc fiziklərin yaradıcılıq müsabiqəsi”nin keçirilməsi barədə əsasnamə**